*Bahar Məmmədova (Bərdəli). Sabir Rüstəmxanlının poeziyasında müharibə və sülh amili // Əlyazmalar yanmır, 2018, № 2 (7), s.80-84.*

UOT: 82.0

**Bahar Məmmədova (Bərdəli)**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu,*
*Bakı şəhəri, H.Cavid prospekti 115*
*baharmemmed3@gmail.com*

# SABİR RÜSTƏMXANLININ POEZİYASINDA MÜHARİBƏ VƏ SÜLH AMİLİ

***Açar sözlər:*** *Sabir Rüstəmxanlı, Qarabağ, müharibə, şəhid, şeir, Vətən*
***Ключевые слова:*** *Сабир Рустемханлы, Карабах, война, шехид, стихи, Родина*
***The key words:*** *Sabir Rustemkhanli, Karabakh, war, killed, poetry, Homeland*

*Bir çox alim-tədqiqatçıların gəldiyi qənaətə görə, böyük ədəbiyyat tarixi dönəmlərdə - ictimai-siyasi formasiyaların dəyişdiyi, inqilabların, Vətən müharibəsini baş verdiyi, bir sözlə, xalqın taleyüklü dönəmlərində yaranır. Faktlar göstərir ki, belə anlarda ədəbiyyatçılar məhz xalqın yanında olur və onların bütün janrlarda yaratdığı əsərin baş qəhrəmanı da mütləq xalq olur. Bir maraqlı nüans da odur ki, belə dönəmlərdə çox vaxt hakim-məhkum məsələsi, sinfi mübarizə arxa plana keçir. Həmçinin, sinfi mübarizələrdə, yəni vətəndaş qarşıdurmasında belə ədəbiyyatın əsas qəhrəmanı, müsbət obrazı xalqdır.*

Keçən əsrin 90-cı illərində baş verən hadisələr – SSRİ-nin çökməsi, müstəqillik uğrunda mübarizə, ermənilərin Qarabağ iddiası hər bir Azərbaycan vətəndaşını ayaqa qaldırmışdı. Təbii ki, bütün yazarlar, o cümlədən şairlər də poetik sözləri ilə meydanda idilər. Hələ də bitməyən Qarabağ savaşına yüzlərlə şeir, poema və digər janrlarda əsərlər həsr olunmuşdur. Müstəqillik qazanıldıqdan sonra Qarabağ mövzusu daha çox aktuallaşdı və ayrılıqda, xüsusi olaraq gündəmə gəldi. Bütün şairlər bu mövzuya müraciət edərək bu və ya digər dərəcədə öz sözünü deyə bildi. "Doğurdan da, bütünlüklə 1990-cı illər ərzində və ümumən də müstəqillik dövründə ədəbiyyatın baş mövzusunu, Ulu Öndərin uzaqgörənliklə təyin etdiyi kimi: Azərbaycançılıq qayğıları və Qarabağ müharibəsi mövzusu təşkil etmişdir" (1, 13).

Bu mənada, Xalq şairi, XX yüzilliyin 70-ci illər ədəbi nəslinə mənsub olan Sabir Rüstəmxanlının yaradıcılığında, xüsusilə, poeziyasında Qarabağ müharibəsinin təsviri, tərənnümü, ümumilikdə Qarabağ mövzusu xüsusi yer tutur. Şairin müstəqillik uğrunda gedən mübarizəyə, milli-azadlıq hərəkatına və Qarabağ savaşına həsr olunmuş əsərləri yetərincədir. Bu zaman kəsiyində müəllif həm meydan hərəkatında nitq, çıxışları ilə, həm də poetik, publisistik yaradıcılığı ilə öz sözünü yüksək səviyyədə deyə bilmişdir. Onun *"Qorxum qalmadı", "Siz nə umursunuz bu gedişatdan", "Bəxtiyar, Əli", "Xocalıdan sonra", "Xocalıya mərsiyə", "O torpaq bizləri götürməyəcək", "Bu mənim xalqım deyil", "Bunlar nə istəyir millətdən görən"* kimi şeirlər göstərir ki, o ictimai-siyasi hadisələrin gerçəkliyi içindən böyük ümid, sabaha olan inam, vətəndaş qeyrəti axtarır. Qarabağ müharibəsindəki ilk məğlubiyyətlər xalqı birliyə, möhkəmliyə, əzmkarlığa çağırdığı kimi, şair də bu fikirlərə yardımçı olur, ilk şəhidlərə ağı deyir:

*Kim deyir yolları qırıldı, qısa,*
*Onlar əbədidir, batmayın yasa,*

*Bu sayaq ölməyi bacarırıqsa,*
*Hələ yaşayırıq, varıq deməli,*
*Həyat vəsiqəmiz Bəxtiyar, Əli! (5, 188)*

Şair müharibənin ilk qurbanlarının –yəni Bəxtiyarla Əlinin əbədi yaşarlıq qazandığını böyük fəxarətlə söyləyir. "Bu sayaq ölməyi bacarırıqsa, hələ yaşayırıq, varıq, deməli" – deyir. "Sabir Rüstəmxanlı poeziyası – Ulusalbilinc – milli şüur poeziyasıdır, xalqın, millətin öz mənliyini, böyük və əzəmətli keçmişini dərk etmək uğrunda mübarizəsinin, bütün rəsmi və qeyri-rəsmi yalanları, saxtakarlıqları darmadağın etmək uğrunda səfərbər edilmiş iradə gücünün, mətanət və mərdanəliyin, qarşısıalınmaz ruh qüvvəsinin poeziyasıdır". (3, 69)

90-cı illər poeziyası özündən əvvəlki şeirlərdən köklü şəkildə, müqayisə olunmayacaq dərəcədə fərqlənir. Məqalənin əvvəlində qeyd etdiyimiz kimi, ictimai-siyasi, sosial hadisələrin birdən-birə dəyişməsi, Qarabağ münaqişəsinin başlanması və onun müharibəyə çevrilməsi poeziyanın yönünü, mövzusunu dəyişib öz ardınca apardı. Bu dövrü əks etdirmək baxımından S.Rüstəmxanlı poeziyası da diqqəti çəkməyə bilmir. B.Vahabzadə, M.Araz, X.Ulutürk, Qabil, N.Xəzri kimi ünlü şairlərin sırasında olan Sabir "Xocalıdan sonra" şeirində mütləq belə deməli, belə də yazmalı idi:

*Asılıb qalmışam vaxt boşluğunda,*
*Daha bu sabahım, o keçmişim yox!*
*Mənim Xocalıdan başqa tarixim,*
*Mənim Xocalıdan başqa işim yox! (6, 78)*

"Sabir Rüstəmxanlı poeziyası öz oxucusunu yalnız yeni duyğular, yeni arzular, yeni fikirlər ilə deyil, həm də ən başlıcası, qeyrətlə silahlandırır". (3, 10)

Qarabağ müharibəsini ən ağrılı, yaralı yeri, belə demək mümkünsə, kulminasiya nöqtəsi Xocalı faciəsidir. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə- qarlı qış günü erməni hərbçiləri qəflətən, gözlənilmədən Xocalıya hücum etdilər və bir şəhəri ətraf kəndləri ilə birlikdə məhv etdilər. "Xocalı soyqırımında 613 nəfər öldürüldü, 487 nəfər yaralandı, 1275 nəfər əsir götürüldü, 6 ailə bütünlüklə məhv edildi, şəhər yandırıldı." (7, 293). Təkcə bu faciəyə yüzlərlə şeir, poema həsr olunub. S.Rüstəmxanlının "Xocalıya mərsiyə" şeiri də bu əsərlərin sırasında boy verməkdədir:

*Xocalıdan sonra qısılıb səsim....*
*Səsim o dağlara ilişib qalır...*
*Xocalı ləkəsi daşıyan millət,*
*Vuruşdan savayı nə işin qalır?! (6, 79)*

Şeir Sabirin düşmən tapdağında inləyən yurda elegiyasıdır. Hər misrası bir ağıya, bayatıya, lay-laya çevrilən bu elegiyanın Sabir ruhuna, Sabir qeyrətinə xas olduğu da aydın görünür.

Dünənə qədər bu xalqa sığınan, bu torpaqın neymətlərindən bəhrələnən namərdlər birinci dəfə deyildi ki, Xocalı kimi faciələr törədiblər. Tarixdə belə faktlar çoxdur. Elə XX əsrdə neçə dəfə bu xalq soyqırıma, deportasiyaya məruz qalıb. "Mininci səhfimdən də, // Yenə almadım ibrət,// Yenə ayrı-seçkilik,// Yenə köhnə xəyanət...// Xəyanətlər qurbanı, // Şəhid yurdum, Xocalım!"
Şair göstərir ki, düşmən güclü olduğu üçün yox, məhz hiyləgərliyi ilə, xəyanət yolunu tutduğu üçün döyüşlərdə qalib gəldi:

*Yenə köhnə xəyanət...*
*Kişinin bir dili var,*
*Düşmən dili haçalı,*

*Minüzlü siyasətə*
*Qurban gedən Xocalım!.. (6, 81-82)*

“Xocalı faciəsi Azərbaycan ədəbiyyatından ayrıca bir xətt kimi keçmişdir. Nürəngiz Günün, İsa İsmayılzadıənin, Sabir Rüstəmxanlının, Zəlimxan Yaqubun, Vaqif Bayatlı Odərin, Qaçay Köçərlinin və onlarla digər şairlərin şeirlərində, nəsr və səhnə əsərlərində Xocalı həqiqətləri dünyaya bəyan edilmiş, erməni vandalizmi və bədnam qonşuların azərbaycanlılara qarşı yeritdiyi genosid siyasəti ifşa olunmuşdur” (1,20).

Vətən haqqında şeir yazanları iki qismə ayırmaq olar. I qisim şairlər yalnız Vətəni vəsf edirlər, tərifləyirlər və bununla da kifayətlənirlər. II qisim şairlər isə təkcə təsvir, tərənnüm etmirlər, həm də onun müstəqilliyi, azadlığı, firavanlığı üçün, hər ağrı-acısını, problemlərini çiyinlərinə yükləyərək daşıyırlar, mübarizə aparırlar, hər cəfasına dözürlər!

“Bağrındakı, ciyərlərində və nəfəsindəki qəhrəmanlıq yangısının tüstüsüz alovuna, atəşinə baxmayaraq bu poeziya nə qədər təvazökardır, iddiasızdır, babalar, atalar, ulular yanında sıxılan, kəmlər, gədalar yanında məğrur, başı uca və meydan oxuyandır! Təvazö və igidlik bu poeziyanın boyuna biçilib”. (2, 69)

Ən böyük sevgi, ulu eşq Vətənə olan bağlılıqdır, doğulduğun, böyüdüyün torpağa olan sədaqətdir. Bu həqiqi sevgidən doğulan şeirlər də əbədidir, ölməzdir. Eyni zamanda basılmaz, əyilməz, əzilməz bir ordudur:

*Qayıt, mənim gur nəfəsim,*
*Gur nəfəsim, sel nəfəsim.*
*Qayıt, yurdu xilas eylə,*
*Üstünə düşmən gülməsin! (6, 95)*

*“Qayıt”* şeiri düşmənin hücumundan, Xocalı soyqırımından sonra geri çəkilən orduya şairin müraciətidir. Bu Ulu, doğma torpaqda düşmənin meydan sulamasına dözməyən şair ürəyi, şair qələmi üzünü xalqına tutur:

*Yağmaladı mərə kafir,*
*Düşmən əlin qıran, qayıt!*
*Bakıda çadırlar qurma,*
*Şuşanı qaldıran, Qayıt! (6, 94)*

Bu şeir ölkəboyu qaçqına, köçkünə çevrilən bir millətə müraciətdir. “Sabir Rüstəmxanlı içərisində olduğu ədəbiyyat və sənət mühitini daima qabarıqlığı ilə canlandırmağa, yaradıcı insanlarımızın şəxsiyyətinə ümumxalq məhəbbətini yaratmaq və dərinləşdirməyə xüsusi can atan, önəm verən bir ziyalıdır”. (4, 59)

S.Rüstəmxanlının bu dövr ərzində yazdığı *“Acı xatirə”, “Yad oğlu yad”, “Heyif”, “Bu, adi millət deyil”, “Düşmən əlində”, “Qayıt”, “Yadlıq”, “Öz sözün ilə”, “Təkcə özümə gücüm çatır”* kimi şeirləri Qarabağın ayrı-ayrı günlərini, anlarını əks etdirir.

*Şəhidlik ömrün tacı, şəhidlik baş tacımız,*
*Şəhiddi neçə-neçə qardaşımız, bacımız,*
*Allah üz döndərəndə şəhidlik əlacımız,*
*Bir candı qaytararıq- elə də minnət deyil,*
*Qoy tarix yenə görsün bu adi millət deyil. (6,90)*

“S.Rüstəmxanlının yaradıcılığında çağırış, barışmazlıq ruhu aparıcıdı. O, barışığa üsyan edir: Vətənimizi, xalqımızı bölən, azadlıqımızı, müstəqilliyimizi əlimizdən alan barışığa!”

(7,133). Bu da təbiidir. Vətəni, xalqı bölən düşmənə barışıq üçün əl uzatmaq yox, silahları göstərmək lazımdır.

"Hətta "Bu adi millət deyil" şeirində milləti içəridən yeyən, məğlubiyyətə, məhvə aparan əlamətləri açıb göstərəndə belə, qeyd edir ki, bu mənim özümə nifrətim yox, harayımdır..." (7, 133).

Şairin ayrı-ayrı elm, ədəbiyyat xadimlərinə, onların göstərdiyi şücaətə, hünərə həsr etdiyi onlarca şeiri də var. Ağır dönəmlərdə bu xadimlər bir ordu qədər iş görmüş, xalqının, millətinin yanında olmuşlar. Lakin xalq - ziyalı birliyinə kölgə salan qüvvələr hər vaxt onu parçalamağa, dağıtmağa çalışmışdı. Şair öz poetik sözü ilə onların da cavabını verir:

*Bu ulu millətin qanı müqəddəs,*
*Qılıncı müqəddəs, qını müqəddəs,*
*Bəs niyə dəyişdi, hanı müqəddəs?!*
*Heyif, Məmməd Araz, çağlarımıza! (6, 89)*

"Azərbaycanın problemlərini yazıçı və şairlər kimi heç kəsin dərindən bilməz, çünki onlar əlinə qələm alandan bu problemləri göstəriblər, həllinə diqqəti çəkiblər və imkan verdiyi dərəcədə özləri də çalışıblar..." (7, 188)

*Beləliklə, Sabir Rüstəmxalının Qarabağ müharibəsinə həsr etdiyi şeirləri onun Müstəqillik, Bərabərlik, Azadlıq, Bütövlük uğrunda gedən mübarizəyə həsr etdiyi poetik nümunələrin bir hissəsidir. Bütövlükdə, şairin poeziyası milli vətənpərvərlik ruhuna köklənib və bir xalqın, millətin tale yükünün daşıyıcısıdır. Onun dilinin, ədəbiyyatının təmizlik simvoludur, problemlərinin həlli yollarının göstəricisidir. Eyni zamanda, müharibəni törədənlərə, bu yolla dinc əhalini qırıb, torpağını zəbt edənlərə bir nifrət simvoludur!*

## Ədəbiyyat:


1. İsa Həbibbəyli. Müstəqilliyin şərəfli yolu və müstəqillik ədəbiyyatı. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı. Bakı, "Elm və təhsil", 2016.
2. Xəlil Rza Ulutürk. Sabir Rüstəmxanlı haqqında. Bakı, Mütərcim, 1998.
3. Xəlil Rza Ulutürk. Ön söz. Sabir Rüstəmxanlı. Seçilmiş əsərləri. Bakı, Şərq-Qərb, 2004.
4. Rahid Ulusel. Sözün dağ paytaxtı. Bakı, Qanun, 2017.
5. Sabir Rüstəmxanlı. Seçilmiş əsərləri. Bakı, Şərq-Qərb, 2004.
6. Sabir Rüstəmxanlı. Əbədi sevda. Bakı, Təhsil, 2012.
7. Azərbaycan tarixi, 11-ci sinif, Bakı, Çaşıoğlu, 2002
8. Sabir Bəşirov. Sərhədsiz ruhumuzun yolçusu. Bakı, Qanun, 2006.


**Бахар Мамедова (Бардали)**

## Фактор войны и мира в поэзии Сабира Рустамханлы

## *РЕЗЮМЕ*

Ученый исследователь Бахар Мамедова привлекла к анализу стихи Народного поэта Сабира Рустемханлы, посвященные I Карабахской войне. Анализируя его стихи «Нет страха», «На что вы полагаетесь?», «Бахтияр, Али», «После Ходжалы», «Элегия Ходжалы», «Эта земля не примет нас», «Это не мой народ», «Чего они хотят от народа» и т.д., ученый выводит на передний план отношение поэта к войне. Одной из ужасных

страниц Карабахской войны является Ходжалинская трагедия. У поэта очень много стихов на эту тему.

Б.Мамедова в статье также ссылается на мнения исследователей творчества С.Рустемханлы. Приводит примеры из произведений Халила Рзы, Сабира Баширова, Рахида Улусела, посвященных ему.

**Bahar Mammadova (Bardali)**

## The factor of war and peace in the poetry of Sabir Rustamkhanly

***SUMMARY***

The scientist researcher Bahar Mammadova drew to analysis the verses of the People's poet Sabir Rustemkhanly dedicated to the 1st Karabakh war. Analyzing his poems "No fear", "What do you rely on?", "Bakhtiyar, Ali", "After Khojaly", "Elegy of Khojaly", "This land will not accept us", "This is not my people", "What they want from the people ", etc., the scientist brings to the forefront the attitude of the poet to war. One of the terrible pages of the Karabakh war is the Khojaly tragedy. The poet has a lot of poetry on this topic.

B.Mamedova in the article also refers to the opinions of the researchers of S. Rustemkhanly. He gives examples from the works of Khalil Rza, Sabir Bashirov, Rahid Ulusel dedicated to him.

*Redaksiyaya daxil olma tarixi: 15.11.2018*
*Çapa qəbul olunma tarixi: 07.12.2018*

Fəlsəfə üzrə elmlər doktoru **Rahid Ulusel**
tərəfindən çapa tövsiyə olunmuşdur.